

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

16 dekabr 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 48 (3561)

# PREZİDENT İLHAM ƏLİYEVİN BELÇİKAYA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində iştirak etmək üçün dekabrın 13-də Belçika Krallığının paytaxtı Brüsseldə işgüzar səfərdə olub.

Avropada yaşayan azərbaycanlılar Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevi Brüsseldə qarşılamağa çıxıblar. Onlar əllərində fransız və ingilis dillərində "Cənab Prezident, xoş gəlmisiniz!", "Avropa azərbaycanlıları Sizi salamlayır!", "Azərbaycan ümumi dəyərlərə hörmət edir!" sözləri yazılmış plakatlar, eyni zamanda, Azərbaycanın və Avropa İttifaqının bayraqlarını tutublar.

Dekabrın 14-də Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev ilə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel arasında görüş olub.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel dövlətimizin başçısı İlham Əliyevi qarşılayıb.

Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin uğurla inkişaf etdiyi qeyd olunub. Avropa İttifaqının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində dəstəyi vurğulanıb. Prezident İlham Əliyev bu məsələlərə verdiyi töhfəyə görə Şarl Mişelə təşəkkür edib.

Eyni zamanda, Avropa İttifaqı, Azərbaycan və Ermənistan arasında keçiriləcək üçtərəfli görüşə dair fikir mübadiləsi aparılıb.

Söhbət zamanı, həmçinin Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası ilə bağlı



məsələlər müzakirə olunub. Eləcə də kommunikasiyaların açılması, humanitar xarakterli məsələlər və digər mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb.

Həmin gün NATO-nun Baş katibinin dəvəti əsasında Prezident İlham Əliyevlə Alyansın Baş katibi Yens Stoltenberq arasında görüş olub.

NATO-nun Brüsseldəki mənzil-qərargahında Baş katib Yens Stoltenberq dövlətimizin başçısı İlham Əliyevi qarşılayıb.

Görüşdə NATO-nun Baş katibi Azərbaycanın Alyansın dəyərli tərəfdaşı olduğunu qeyd edərək, Azərbaycan Silahlı Qüvvələrinin Əfqanıstanda "Qətiyyətli dəstək" əməliyyatlarındakı xidmətini yüksək qiymətləndirib. Bildirib ki, Azərbaycan sülhməramlıları Əfqanıstanı sonuncu tərk edən hərbi qulluqçular olublar və onlar 120 mindən çox insanın Əfqanıstan hava limanı vasitəsilə təxliyəsinə töhfə veriblər. Yens Stoltenberq buna görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Dekabrın 14-də Belçika Krallığının paytaxtı Brüsseldə NATO-nun Şimali Atlantika Şurasının iclası keçirilib. Prezident İlham Əliyev iclasda iştirak edib.

İclasda Azərbaycan-NATO əməkdaşlığı və praktiki müstəvidə əməkdaşlığın inkişafı, Alyansın Əfqanıstanda keçirilən "Qətiyyətli dəstək" missiyasına ölkəmizin töhfəsi, Azərbaycanla NATO arasında planlaşdırma analiz prosesi və digər proqramlar çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsi məsələləri, həmçinin ölkəmizin Avropanın enerji təchizatında rolu, regional proseslər barədə ətraflı fikir mübadiləsi aparılıb.

NATO-ya üzv dövlətlər tərəfindən ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına bir daha dəstək ifadə olunub. Bu mövqenin NATO-nun Sammit sənədlərində də dəfələrlə təsbit olunduğu qeyd edilib.

İclasda, həmçinin Azərbaycan və NATO silahlı qüvvələri arasında operativ hərbi uzlaşma məsələsinin artırılmasının vacibliyi vurğulanıb.

Prezident İlham Əliyev Azərbaycanın regionda oynadığı rol, xüsusilə Vətən müharibəsinin başa çatmasından sonra bölgədə yaranmış yeni geosiyasi vəziyyət, Azərbaycanın Ermənistanla sülh müqaviləsi üzrə danışıqlara başlamağa hazır olması, həmçinin sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə hazırlıq kimi məsələlər haqqında ətraflı məlumat verib.

Daha sonra Prezidenti İlham Əliyev ilə NATO-nun Baş katibi Yens Stoltenberqin Brüsseldə Alyansın mənzil-qərargahında birgə mətbuat konfransı olub.

Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə birgə görüşü də keçirilib.

Konstruktiv mühitdə keçən görüşdə bir sıra önəmli məsələlər müzakirə olunub.

Görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsi məsələsi gündəliyə gətirilib, Avropa İttifaqının bu istiqamətdə Azərbaycana texniki yardım göstərməyə hazır olduğu bildirilib.

Ermənistan-Azərbaycan dövlət sərhədinin delimitasiyası ilə bağlı hər iki tərəf müvəqqəti işçi qrupun yaradılması ilə bağlı razılığa gəliblər. Eyni zamanda, kommunikasiya və nəqliyyat xətlərinin açılması məsələsi geniş müzakirə olunub. Ermənistan tərəfi öz ərazisindən dəmir yolu xəttinin çəkilməsi ilə bağlı üzərinə düşən öhdəliyi təsdiq edib. Bildirilib ki, Ermənistan tərəfi dəmir yolunun çəkilişinə tezliklə start verəcəkdir. Burada gömrük və sərhəd nəzarət məsələlərinin qarşılıqlı prinsip əsasında təmin olunması barədə razılığa gəlinib.

# MÜASİR AZƏRBAYCANIN BANİSİ



Ulu öndər siyasi fəaliyyəti, dövlət idarəçiliyindəki qətiyyəti, cəsarəti ilə böyük bir məktəb yaratdı. Onun ali hakimiyyətə ikinci dəfə qayıdışından sonra ölkəmizdə siyasi və iqtisadi sabitlik bərqərar olundu, insan hüquq və azadlıqlarının təminində normativ-hüquqi baza yaradıldı, konstitusiyamız məhz onun rəhbərliyi ilə hazırlandı.

Xilaskarımız dilimizi, dinimizi və tariximizi qorumaq üçün bu gün də rəğbət hissi ilə xatırlanacaq çox böyük işlərə imza atdı. Dövlətçiliyimizin siyasi-ideoloji əsaslarını və milli inkişaf konsepsiyasını hələ sovetlər dönəmində yaradaraq məhz illər sonra həmin konsepsiya əsasında xalqımızı öz həqiqi dövlət müstəqilliyinə qovuşduran bu böyük şəxsiyyətin ömür yolu hər birimizə örnəkdir.





Ümummilli liderimizin vəfatının 18-ci ildönümü günü DİN-in təmsilçiləri də Fəxri xiyabana gələrək müasir, müstəqil Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyevin məzarını ziyarət etmiş, xalqımızın görkəmli oğlunun abidə kompleksi önünə gül dəstələri qoyaraq, əziz xatirəsini ehtiramla yad etmişlər.

# ƏBƏDİYYƏTƏ QOVUŞDULAR

## Ağcabədidə şəhidin anım günü qeyd olunub

Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış DİN Daxili Qoşunların hərbi qulluqçusu, çavuş Elsevər Piriyevin anım günündə Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, polis general-mayoru İslam Hümbətov, Rayon Polis Şöbəsinin əməkdaşları, rayon ictimaiyyəti, şəhidin ailə üzvləri və döyüş yoldaşları iştirak ediblər. Şəhidin məzarı önünə gül-çiçək dəstələri qoyulub, ruhuna dualar oxunub.





Çıxış edənlər ordumuzun şanlı qələbəsindən söz açıb, şəhidimizin keçdiyi döyüş yolundan, göstərdiyi şücaət və qəhrəmanlıqlardan danışıblar.

Çavuş Elsevər Piriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlari ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

*Aslan Qiyaslı,*
*polis baş leytenantı*

# BİZƏ YAZIRLAR...

**Sabitliyi, asayişi etibarlı qoruyan, etimadı doğrultmaq üçün vəzifələrinin öhdəsindən layiqincə gəlməyə çalışan, köməyə ehtiyacı olanların çağırışına tələsən polisin fəaliyyəti dünən olduğu kimi, bu gün də diqqət mərkəzindədir.**

İctimai nəzarət mexanizminin bütün sahələrdə işlək olması, daxili işlər orqanlarının fəaliyyətində də hiss olunur. Hər bir vətəndaş hətta, polis tərəfindən üzləşdiyi neqativlə bağlı birbaşa DİN rəhbərliyinə müraciət etməklə pozulmuş hüquqlarını bərpa edir. Vətəndaşın məmnunluğu üçün fəaliyyətini quran polis isə onun güvəncini qazanmaqla yanaşı, həm də baş verə biləcək cinayətlərin qarşısını vaxtında almış olur. Odur ki görülən iş, çəkilən zəhmət hədər deyil. Vətəndaşlar da bunu görür və qiymətləndirirlər.

**Sumqayıtda məskunlaşan Tərtər rayon sakini, şəhid atası Ədalət Verdiyev** dələduzluqla bağlı etdiyi müraciətə tez bir zamanda baxılmasına və dəymiş ziyanın ödətdirilməsində göstərilən köməkliyə görə Sumqayıt Şəhər Polis İdarəsinin rəhbərliyinə minnətdarlıq edir.

**Sumqayıt şəhər sakini Xalidə Hacıyeva** da pulunun dələduzluq yoluyla ələ keçirilməsi barədə polisə müraciət edib. O, Yasamal Rayon Polis İdarəsinə etdiyi müraciətə çevik reaksiya verildikdən qısa müddət sonra dəymiş ziyanın geri qaytarıldığından yazır.

**İnstagram izləyicisi Əbülfət Şahmarov** isə DİN rəhnərliyinə ünvanladığı məktubunda yaşadığı binanın qarşısında qanunsuz küçə ticarətinin narahatlığa səbəb olması ilə əlaqədar etdiyi müraciətə operativ baxılmasına görə minnətdarlığını ifadə edir.

Yeri gəlmişkən, bugünlərdə redaksiyamıza daxil olan məktubda bir ailə faciəsinə səbəb olacaq hadisənin qarşısının alınması günümüzün ən aktual məsələlərindən biri olduğu üçün diqqətimizi çəkdi. **Məktub müəllifi A.Cəfərova** üzləşdikləri problemin həllinin tapılmasında onlara göstərilən köməyə görə Suraxanı RPİ-nin əməkdaşlarına təşəkkürünü ifadə edirdi. Elə məktubun sorağı ilə də Suraxanı Rayon Polis İdarəsində olduq. **Əməliyyat işləri üzrə rəis müavini, polis polkovnik-leytenantı Fizuli Əhmədovla** həmsöhbət olarkən ilin müvafiq dövrünün göstəricilərini də diqqətimizə çatdırdı. 11 ay ərzində axtarışda olanların tapılması ötən il 63,8 faiz təşkil edirdisə, bu il 87,4 faizdir. Qanunsuz narkotiklərin saxlanması və satışı ilə bağlı 2020-ci ildə 136 fakt qeydə alınmışdırsa, cari ildə bu 458 faktdır. F.Əhmədov onu da qeyd etdi ki, cinayətlərin açılma faizi bu il 89,1faiz təşkil edir.

**Bakı şəhər sakini Teymur Kərimov** yazır ki, polis onun da problemini həll edib. Ailə münaqişəsi ilə bağlı müraciətinə Sabunçu PRİ-nin rəhbərliyi çevik reaksiya verib və ona xəsarət yetirən şəxs barəsində qanunamüvafiq tədbir görülüb.

Sözügedən mövzu ilə bağlı **Sabunçu RPİ-nin əməliyyat işləri üzrə rəis müavini, polis polkovnik-leytenantı Fazil Zərbəliyev** ailə münaqişələrinin qarşısının alınması üçün polislə birgə bütün təsisatların səfərbər olmasının zəruriliyini bildirdi.

*Ruhiyyə Əliyeva,*
*Ruslan Vəliyev*

# Qarabağ silah-sursatdan təmizlənir



İşğaldan azad edilmiş ərazilərin mina və digər partlayıcı vasitələrdən təmizlənməsi, erməni hərbi birləşmələrinin geri çəkilərkən atdıqları silah-sursatın yığılması üçün daxili işlər orqanlarının əməkdaşları tərəfindən zəruri tədbirlər yerinə yetirilir.

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, Laçın Rayon Polis Şöbəsinin əməkdaşlarına təhkim olunmuş Xocavənd rayonunun Üçtəpə adlanan ərazisində tərk edilmiş hərbi mövqelərdən xeyli sayda silah-sursat toplanıb.

Ötən bir ilə yaxın müddət ərzində RPŞ-nin əməkdaşları tərəfindən 13 pulemyot, 3 avtomat, 3 tüfəng, 3 qumbaraatan, 30 əl qumbarası, 1 "Muxa", 1 "İqla", 1 minaatan qurğusu, 80 qumbaratan mərmisi, 93 sandıq, 13200 müxtəlif çaplı patronlar, 105 tank və piyada əleyhinə mina və 6 digər partlayıcı vasitə aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.

# ÖNDƏR ÖMRÜ

## Ümummilli liderimizin xatirəsi dərin ehtiramla anıldı

**Ölümü ilə ölümsüzlüyə qovuşan, xalqa həsr etdiyi ömrüylə əbədiyaşarlıq qazanan ulu öndər Heydər Əliyevin xatirəsinin anım günü ilə bağlı silsilə tədbirlər keçirilib.**

DİN-in Polis Akademiyasında ulu öndərin anım günü ilə əlaqədar keçirilən tədbiri **Akademiyanın rəisi, polis polkovniki Canpolad Daanov** açıq elan edərək, ümummilli liderin zəngin ictimai-siyasi fəaliyyəti haqqında ətraflı məlumat verib. Qeyd edib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin irsini öyrənmək üçün Akademiyada "Heydər Əliyev Mərkəzi" yaradılıb. Mərkəzdə yaradılan şərait, geniş ekspozisiya, fotoguşələr və sənədli materiallar Akademiyanın kursant və əməkdaşlarının bu böyük şəxsiyyətin zəngin tarixi irsinə dərindən yiyələnməsinə imkan verir.

Sonra Akademiyanın "İctimai elmlər" kafedrasının rəisi, tarix üzrə fəlsəfə doktoru, polis polkovnik-leytenantı Rəhim Məcnunov müasir Azərbaycan qurucusunun tariximizdəki rolu barədə məruzə ilə çıxış edib.

**Səbail Rayon Polis İdarəsində** də ümummilli lider Heydər Əliyevin vəfatının 18-ci ildönümü ilə əlaqədar qeyd edilən anım günündə RPİ-nin rəhbərliyi və gənc polis əməkdaşları iştirak edib.

Tədbiri giriş sözü ilə açan **RPİ-nin rəisi, polis polkovniki Hikmət Qasımov** ulu öndər Heydər Əliyevin həyat yolundan şəxsi heyətə ətraflı məlumat verib. Qeyd edib ki, Azərbaycan xalqının müstəqil ölkədə firavan yaşaması, məhz H.Əliyevin uzaqgörənliyi, dövlət idarəçiliyi, siyasəti ilə bağlıdır. Bu gün isə H.Əliyevin təməlini qoyduğu siyasəti layiqli davamçısı Müzəffər Ali Baş Komandan İlham Əliyev uğurla davam etdirir.

İdarə rəisi gənc əməkdaşların tədbirdə iştirak etməsini H.Əliyev ideyalogiyasının öyrənilməsində mühüm olduğunu vurğulayıb.

Sonda tədbir iştirakçıları ümummilli liderin həyat və fəaliyyətindən bəhs edən sənədli film izləyiblər.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatıda ümummilli liderin anım günü ilə əlaqədar "Heydər Əliyev – hüquqi və demokratik dövlət quruculuğunun banisidir" mövzusunda konfrans keçirib.

Tədbirdə çıxış edənlər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı əvəzsiz xidmətlərinə toxunaraq, məhz Heydər Əliyevin səyi nəticəsində Azərbaycanın bir dövlət kimi parçalanmadan xilas olduğunu, müstəqilliyimizin möhkəmləndiyini və sürətli inkişafa yönəldiyini bildiriblər.

Daha sonra ulu öndərə həsr edilən "Mən fəxr edirəm ki, Azərbaycanlıyam!" filmi nümayiş olunub. Eləcə də "Polisə dəstək" İctimai Birliyinin sədri, Qarabağ müharibəsi veteranı Şəmsəddin Əliyev və Azərbaycanın hüquq mühafizə orqanları" kitabı konfrans iştirakçılarına təqdim olunub.






*Ruslan Vəliyev,*
*Rəşad Mehtiyev*

# Təcrübəmizi bölüşürük

## Qətərli polislərlə təlimlər keçirilib





**Dekabrın 6-dan 12-dək Qətər Dövlətinin polis əməkdaşlarından ibarət nümayəndə heyəti DİN-in Polis Akademiyasında rəsmi səfərdə olub.**



Qonaqlara ilk olaraq Polis Akademiyasının maddi-texniki bazası barədə məlumat verilib.

Nümayəndə heyətilə "İğtişaşlar zamanı ictimai asayişin qorunması üçün polis tərəfindən fiziki qüvvədən, xüsusi hallarda odlu silahdan, həmçinin xüsusi vasitələrdən istifadə olunması" mövzusunda nəzəri və praktiki təlimlər keçirilib. İnteraktiv formatda baş tutan təlimlərdə sözügedən mövzu ilə bağlı müxtəlif təqdimatlar, videoçarxlar, habelə tədris materialları təqdim edilib və qarşılıqlı müzakirələr aparılıb.

Səfər çərçivəsində Qətərli asayişçilər DİN-in Əlahiddə Çevik Polis Alayının kütləvi iğtişaşlar zamanı, "Bakı Olimpiya Stadionu"nda "İdman tədbirləri zamanı ictimai asayişin və təhlükəsizliyin təmin olunması treninqi", "Təhlükəsiz şəhər", həmçinin "102 Xidməti-Zəng Mərkəzi" xidmətlərinin fəaliyyətləri ilə də tanış olublar.

Təlimi uğurla başa vuranlara sertifikatlar və hədiyyələr təqdim edilib.

Polis Akademiyası və DİN-in Beynəlxalq Əməkdaşlıq İdarəsi rəhbərliyinin iştirak etdiyi tədbirdə çıxış edən Qətər Dövlətinin Azərbaycandakı Səfirliyinin 3-cü katibi Feysal Almulla yüksək təşkilatçılığa görə DİN rəhbərliyinə minnətdarlığını bildirərək bu növ təlimlərin gələcəkdə də ənənəvi şəkildə davam etdirilməsinin vacibliyini diqqətə çatdırıb.

*Teymur Əlizadə,*
*polis mayoru*

# BİZ ONLARI TANIMALI VƏ TANITMALIYIQ

**Şəhid valideynləri və ömür-gün yoldaşları ilə həmsöhbət olarkən onların gözündə qəribə bir təskinliyin şahidi olmuşam. Bu təskinliyi dillərinə gətirəndə isə heyrət və sükut içində donmuşam. Demək çəkdikləri ağrını onlara az da olsa unutduran torpaqlarımızın azadlığı uğrunda övladlarının göstərdiyi qəhrəmanlıqlar imiş...**

**Haqqında söhbət açacağım Vətən müharibəsi qazisinin ən böyük ağrısı sol qolundan aldığı güllə yarası deyil, Şuşa döyüşlərində iştirak edə bilməməsidir...**

Baş çavuş Elşən Nazil oğlu Novruzov 1987-ci il noyabrın 18-də Mingəçevir şəhərində doğulub. Orta təhsilini Binəqədi rayonundakı Azərbaycanın Milli Qəhrəmanı Famil İsgəndərovun adını daşıyan 157 saylı tam orta məktəbdə alıb. Müddətli həqiqi hərbi xidmətini 2006-cı ilin oktyabr ayından 2008-ci ilin aprel ayınadək Müdafiə Nazirliyinin Qazax rayonundakı "N" saylı hərbi hissəsində keçib. Tərxis olunduqdan sonra bir müddət mülki işdə çalışıb. Lakin hərbi xidmətə olan böyük marağı səbəbindən yenidən ordu sıralarına qayıdıb. Beləliklə, 2011-ci ilin iyul ayından Daxili Qoşunların Qubadakı "N" saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 2012-ci ilin iyul ayından qoşunların Sumqayıt şəhərindəki "N" saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində xidmətini davam etdirən baş çavuş E.Novruzov əvvəlcə xüsusi kəşfiyyat qrupunda kəşfiyyatçı, 2014-cü ilin sentyabr ayından yaralandığı günədək isə xüsusi həmlə qrupunda atıcı-snayper kimi vəzifə borcunu ləyaqətlə yerinə yetirib. Hobbisinin idman olduğunu deyən Elşən Daxili Qoşunların birinciliyində silahsız özünümüdafiə, ağırlıq çəki daşlarının qaldırılması və qol güləşi yarışlarında dəfələrlə yüksək nailiyyətlər əldə edərək birinci yeri tutub.

Vətən müharibəsində düşmənə böyük nifrət və intiqam hissi ilə döyüşlərə qatılıb. Cəbrayıl, Füzuli rayonları, eləcə də Xocavənd rayonunun Hadrut yaşayış məntəqəsi istiqamətlərində aparılan hərbi əməliyyatlarda fəal iştirak edib. Onun döyüş yolu məhz 2020-ci il sentyabrın 27-də Cəbrayıl istiqamətindən başlayıb: "Şəxsi heyət hər biri on-on iki



nəfərdən ibarət olan ayrı-ayrı qruplara bölünmüşdü. Dəstə komandirimiz mayor Ələsgər Muxtarovun rəhbərliyi altında axşam saatlarında hücuma başlayan qrupumuz Arazboyu ərazilərdən Füzuli rayonu istiqamətinədək düşmənin strateji mövqelərini ələ keçirməyə müvəffəq oldu.

Oktyabrın 3-də Cəbrayıl istiqamətində döyüşlərdə bizim qrupdan şəhid və yaralanan olmasa da, digər qruplarımızın tərkibində vuruşan silahdaşlarımızdan kapitan Türkay Hüseynli, çavuş Elvin Məmmədov və MAXE əsgər Ayaz Abasov şəhid oldular, baş çavuş Əhməd Cahangirli, çavuşlar Orxan İbrahimov və Kamal Məmmədli isə ağır yaralandılar.

Oktyabrın 6-da qrupumuza birgünlük istirahətin verilməsi ilə bağlı əmr almışdıq. Bu məqsədlə, tutduğumuz mövqeləri digər qruplara təhvil verib, geri dönməli olduq. İstirahət edəcəyimiz məkan Füzuli rayonu ərazisində bir zamanlar mövcud olmuş köhnə hərbi hissə idi. Gecəni burada qaldıqdan sonra, oktyabrın 7-də axşam təxminən saat 23:00-da döyüş planına uyğun olaraq hərəkətə başladıq. Gecədən başlayaraq səhər saat 7-yə kimi gizli bir şəkildə düşmən səngərlərindən keçməklə strateji baxımdan əlverişli mövqedə yerləşən yüksəkliyi tutduq.



Düşmən səhər gözünü açanda bizi orada görüb təşvişə düşmüşdü. Axşam həmin strateji yüksəkliyi Müdafiə Nazirliyinin əsasən könüllülərdən ibarət olan digər bir qrupuna təhvil verib, növbəti döyüş tapşırığına uyğun hərəkətə başladıq. Oktyabrın 8-dən 9-na keçən gecə saat təxminən 02:00 radələrində Hadrut istiqamətində azərbaycanlılara aid olan köhnə qəbiristanlığın yanı ilə irəlilədiyimiz zaman qarşımıza düşmənin 9 nəfərdən ibarət kəşfiyyat qrupu çıxdı. Cəld bir şəkildə mövqe tutub, döyüşməyə başladıq və hər birini məhv etdik. Şəxsi heyət arasından 9 nəfər yaralımız oldu. Yaralananlardan biri də dəstəmizdə xüsusi həmlə qrupunun komandiri kapitan Nadir Şərifov idi. Yaralıları təxliyyə qrupuna təhvil verib yenidən düşməni məhv etdiyimiz əvvəlki mövqeyimizə doğru irəliləməyə davam etdik. Gecəni yaxınlıqdakı təpənin üzərində mövqe tutub iki-iki bölünərək, ərazini saat əqrəbi istiqamətində müşahidə altında saxlamaqla burada qalmalı olduq. Mən atıcı-sanitar gizir A.Allahverdiyevlə eyni mövqedə idim. Səhər saat 8-ə işləmiş döyüş başladı. Qarşımızda olan daha yüksək zirvələrdə mövqelənmiş düşmən olduğumuz ərazini güclü atəşə tutmağa başladı. Təxminən on dəqiqə olardı döyüşürdük ki, döyüşçü yoldaşım Asiman erməni snayperinə tuş gəldi. Mən də sol qolumdan snayper gülləsi ilə vuruldum.

Həkimlərimizin sayəsində sağlamlığım qismən bərpa olunub. Hazırda Daxili Qoşunların Hərbi Hospitalında ambulator müalicəmi davam etdirirəm".

**Azərbaycan Respublikası Prezidentinin 22.12.2020-ci il tarixli müvafiq sərəncamı ilə baş çavuş Novruzov Elşən Nazil oğlu "Cəbrayılın azad olunmasına görə", həmçinin, Azərbaycan Respublikası müdafiə nazirinin 03.11.2020-ci il tarixli müvafiq əmri ilə "Şücaətə görə" medalları ilə təltif edilib.**

*mayor Anar Əhmədov*

# SAĞLAM ƏMƏKDAŞ, ETİBARLI MÜHAFİZƏ

**Polis əməkdaşlarının sağlamlığı müəyyən mənada ictimai mahiyyət də kəsb edir. Çünki asayişin etibarlı təmin olunması, əmin-amanlıq, vətəndaşın can güvənliyi digər hüquq mühafizə orqanları ilə yanaşı, polisə də həvalə olunur. Qısa və obrazlı desək, əgər qanun keşikçisi xəstələnərsə, ictimai asayiş də sağlam ola bilməz.**

Buna görə də Daxili İşlər Nazirliyinin rəhbərliyi əməkdaşların, onların ailə üzvlərinin, təqaüdçülərin sağlamlığının qorunub saxlanılması, tibbi təminatın yaxşılaşdırılması, təkmilləşdirilməsinə daim diqqət və qayğı göstərir. DİN-in Tibb İdarəsində və onun struktur qurumu olan poliklinikalarda öz xidməti vəzifələrini yüksək səviyyədə yerinə yetirə bilən, peşəkar həkim heyəti formalaşıb. Burada polis əməkdaşları tam və hərtərəfli müayinə olur, çoxprofilli tibbi yardım alırlar.

Baş Mühafizə İdarəsinin Xəzər Rayon Mühafizə İdarəsinin şəxsi heyəti də əmək qabiliyyətinin yüksək səviyyədə saxlanılması məqsədi ilə hər il mütəşəkkil qaydada profilaktik tibbi müayinədən keçirlər. Hazırkı pandemiya dövründə epidemioloji vəziyyəti nəzərə alaraq bütün əməkdaşlar peyvənd olunub, hətta



təlimata uyğun olaraq üçüncü - buster dozanın vurulmasına başlanılıb.

**İdarənin rəisi, polis polkovniki Sabit Əliyev** "Polis"ə bildirib ki, onların şəxsi heyəti bu il noyabr-may aylarında dispanser müayinəsindən keçiblər və bu zaman 1 saylı poliklinikanın rəhbərliyi başda olmaqla, bütün tibbi heyət öz xidməti vəzifələrini layiqincə yerinə yetirib. Xüsusən mühafizə idarəsinə ərazi üzrə təhkim olunmuş poliklinikanın həkim-terapevti, tibb xidməti baş leytenantı Elza Nəsibova əməkdaşlara yüksək peşəkarlıqla tibbi xidmət göstərir.

Polis əməkdaşlarının sağlamlığının qorunması, heç şübhəsiz, xidmətin səmərəli təşkilinə, əmək qabiliyyətinin yüksək səviyyədə qorunub saxlanılmasına müsbət təsir edir. İdarə rəisi S.Əliyevin sözlərinə görə, onların göstəriciləri əvvəlki dövrlərlə müqayisə etdikdə, təxminən 10 dəfə artıb. Əgər əvvəllər rayon ərazisində 134 obyekt mühafizəyə cəlb edilmişdisə, bu gün idarənin əməkdaşları tərəfindən 1350-yə yaxın obyekt mühafizə olunur. Mülkü əmlakın - mənzillərin, fərdi yaşayış evlərinin mühafizəyə cəlb edilməsi üzrə də idarə, ardıcıl olaraq, ən yüksək nəticə ilə fərqlənir. Bu isə əməliyyat şəraitini düzgün qiymətləndirmək, rayon ərazisində vətəndaşlara məxsus əmlakın gecə-gündüz etibarlı qorunması, cinayətkar əməllərin qarşısının alınması deməkdir.

Xəzər Rayon Mühafizə İdarəsinin əməkdaşları hazırkı pandemiya ilə bağlı tətbiq edilən karantin qaydalarının yoxlanılmasına cəlb edilməsələr də, bankların, poçtların, müxtəlif müəssisələrin mühafizəsini həyata keçirən əməkdaşlar, həmçinin karantin rejiminin tələblərinə əməl olunmasına nəzarət edirlər. Bu isə həmin obyektlərə əlavə qüvvə ayırmadan, vətəndaşlar və müəssisənin işçiləri tərəfindən karantin qaydalarına riayət ediləcəyinə əminlik yaradır.

*R.Mehtiyev*

# POLİS MAARİFLƏNDİRİR, MÜBARİZƏ APARIR

**Narkomaniya ondan hər kəsin imtina edəcəyi gün başa çatacaq. Bundan ötrü isə narkotik vasitələrin insan orqanizmində, eləcə də cəmiyyətdə törətdiyi ağır fəsadlar barədə hamı, xüsusən, gənclər məlumatlı olmalıdır. Polis də məhz gəncləri maarifləndirməklə bu nəticəyə nail olmağa çalışır.**

Bu məqsədlə polis əməkdaşları təhsil müəssisələrində maarifləndirici tədbirləri davam etdirirlər.

Nəsimi Rayon Polis İdarəsinin təşkilatçılığı ilə 46 nömrəli tam orta məktəbdə "Narkomaniyaya yox deyək!" mövzusunda tədbir keçirilib.

**Tədbirdə RPİ-nin rəisi, polis polkovnik-leytenantı Mirnemət Mirbabayev** narkomaniyanın, narkotik vasitələrin və onların prekursorlarından istifadənin insanlara vurduğu maddi və mənəvi zərərlərdən danışıb. Qeyd edib ki, gəncləri bu bəladan qorumaq, onlarda sağlam həyat tərzini formalaşdırmaq üçün birgə mübarizə aparmalı, yeniyetmə və gənclər arasında maarifləndirmə işləri diqqət mərkəzində saxlanılmalıdır. Valideynlərin də bu məsələdə aktiv olmalarının vacib olduğunu deyən idarə rəisi, uşaqlara zərərli vərdişlərə meyil etməmələri üçün təhsilə, idmana yönəlmələrini tövsiyə edib.

Beyləqanda rayonun 2-ci Şahsevən kənd tam orta məktəbində **RPŞ-nin rəisi, polis polkovniki Rüstəm Cəfərov** narkotiklərlə mübarizə sahəsində ölkədə aparılan işlər barədə danışıb, daxili işlər orqanları əməkdaşları tərəfindən bu istiqamətdə görülən məqsədyönlü tədbirlər, onların nəticələri barədə məlumat verib.

Masallı rayonunda da Dəfinə məktəb-liseyində "Narkomaniyaya və erkən nikaha yox deyək!" mövzusunda çıxış edən **RPŞ-nin rəisi, polis polkovnik-leytenantı Azay Ağayev** narkomaniya əleyhinə aparılan işləri nəzərə çatdırıb. DİN və yerli polis orqanlarının bu istiqamətdə ciddi əməliyyat-istintaq tədbirləri görməklə yanaşı, vaxtaşırı maarifləndirici görüşlər keçirdiklərini deyib.



Ağcabədi Pedaqoji Kollecində tələbələrlə eyni mövzuda keçirilən görüşdə çıxış edən **RPŞ-nin rəisi, polis polkovniki Ənvər Həsənov** şagirdlərə narkomaniya və onun fəsadları ilə bağlı geniş məlumat verib, "ağ ölüm"ün ailə və cəmiyyət üçün yaratdığı ciddi problemləri diqqətə çatdırıb.




Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan **Bərdə Regional Həkim-Ambulatoriyasının rəisi, polis polkovnik-leytenantı Həbib Məmmədov** da narkotik vasitələrin zərərlərindən bəhs edib.

Qeyd edək ki, Neftçala, Samux, Tərtər, Qazax rayonlarında keçirilən oxşar tədbirlərdə rayon polis şöbələrinin rəis və rəis müavinləri iştirak edərək müasir dövrümüzün böyük bəlasına çevrilən narkomaniyanın mənəvi-maddi zərərlərindən söz açıblar.

*"Polis"*

# POLİS ƏMƏKDAŞLARINA TƏLİM KEÇİRİLİB

Füzuli rayonunda Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən təhlükəli ərazilərdə xidmət aparan polis əməkdaşları üçün mina və digər partlayıcı vasitələrlə davranış qaydaları mövzusunda təlim keçirilib. Təlimdə vizual materiallar əsasında minalar və silah qalıqlarının yarada biləcəyi təhlükələr haqqında ətraflı məlumatlar verilib.



# “Köhnə” işçinin “təzə” işi...

İ.Ağayevə məxsus inşaat materialları mağazasında mühasib işləyən Ruslan özünü bacarıqlı və məsuliyyətli işçi kimi göstərmişdi. Son günlər işə gec gəlməyi bir yana, müştəriləri narazı salmağı, ləngitməyi müdiriyyətin gözündən yayınmamışdı. Hətta bir-iki dəfə onu çağırıb xəbərdarlıq etmişdilər. Tutulan iradlardan dərs götürməyən Ruslan axırda işi ilə vidalaşmalı oldu.

Xeyli vaxt boş-bikar gəzdikdən sonra başqa bir yerdə işə düzəlsə də köhnə iş yerində mağaza sahibinin ona qarşı haqsızlığa yol verdiyi qənaətindəydi. Nə vaxtsa onunla haqq-hesab çəkəcəyini qətiləşdirmişdi...

Günlərin birində köhnə iş yerinə gələndə əvvəlcə hamı təəccübləndi. Vaxtı itirməyib tez müdiriyyəti soruşdu. “Yerində yoxdur” cavabı ürəyincə oldu:

-Bakıya gedirəm, icazə versəydiniz paltarımı burda dəyişərdim.

-Dəyiş, sən ki, özgəsi deyilsən...

Yardımçı otağa keçib qapını arxadan bağladı. Əvvəlcə tez rəfdəki saxlanc yerini açıb oradan 1500 manatı götürdü, sonra əynini dəyişib mağazanı tez-tələsik tərk etdi.



Noyabrın 4-də eyni üsulla 2500, 18-də isə 57370 manat və 2135 ABŞ dollarını gizli yolla talayıb, ümumilikdə mağaza sahibinə 65000 manat məbləğində maddi ziyan vurdu.

Artıq 2021-ci ilin bitməsinə saylı günlər qaldığından İlham da öz qazancını həsablamaq və nisyə götürdüyü malların pulunu ödəmək məqsədilə saxlanc yerini açanda bir anlıq özünü itirdi. Mağazada hamı bir-birinə dəymişdi. Pulları kim və necə apara bilərdi?

Hadisə barədə məlumat daxil olan kimi Salyan RPŞ-də əməliyyat-istintaq qrupu yaradıldı. Hadisə yerini müayinə edən əməkdaşlar lazımi araşdırmalar apardılar. Mağazanın kameraları incələndikdən sonra nəzərlər R.Mustafayevin üzərində cəmləşdi. O, təqsirləndirilən şəxs kimi polisə dəvət olundu. Təkzibolunmaz fakt və sübutlar qarşısında törətdiyi cinayət əməlini etiraf etdi.

İstintaqa verdiyi ifadəsində həmin pulların bir qismini Bakıda yeyib-içməyə, bahalı otellərdə gecələməyə xərclədiyini bildirdi. “Pulsuz olanda hər zaman piyada gəzirdim, pulum olanda isə özümə xüsusu taksi sifariş verimişdim” ifadəsi isə hər kəsi təəccübləndirdi. “Köhnə” işçinin təzə “işi” bu dəfə ona uğur gətirmədi. Onu məhkəməyə taksidə yox, polisin xidməti maşınında apardılar...

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ POLİS ORQANLARINDA ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Respublikanın şəhər, rayon polis orqanlarında /Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla/ polis sahə rəisi vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirilir.

Cəmi 50 vəzifənin komplektləşdirilməsi ilə əlaqədar keçirilən müsabiqə test imtahanından və müsahibədən ibarətdir. Test imtahanı – "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə cavab verən namizədlərlə qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə test imtahanının proqramı, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar əsasında aparılır. Test imtahanından müvəffəqiyyətlə keçmiş iştirakçıların xidməti vəzifələrini yerinə yetirən zaman qanunvericilik aktlarını tətbiq etmək üzrə bilik və bacarığı, ünsiyyət yaratmaq, özünü təqdimetmə bacarığı, təmkinliyi, fikir və rəyini ifadə etmək qabiliyyəti kimi xüsusiyyətləri Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilən müsahibə zamanı qiymətləndirilir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası üzrə təhsil almış, yaşı 28-dək olan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla) "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları (daxili işlər və digər hüquq mühafizə orqanlarında zabit vəzifələrindən xaric edilmiş şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

Müsabiqə qaliblərinin təyinatlarından sonra onların xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcək.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2021-ci il noyabr ayının 27 - dən dekabr ayının 27 - dək **http://www.mia.gov.az** ünvanda yerləşdirilmiş elektron ərizə formasını və qısa anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Elektron ərizələr Daxili İşlər Nazirliyində qeydiyyatdan keçirilərək namizədlər barədə məlumatlar Baş Kadrlar İdarəsi tərəfindən öyrənildikdən sonra müvafiq qərar qəbul edilir.

Namizədlər məlumatlandırıldıqdan sonra aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

***- şəxsiyyət vəsiqəsi;***
***- ali təhsil haqqında diplom;***
***- hərbi bilet;***
***- əmək kitabçası (olanlar üçün);***

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

«Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları», test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər Daxili İşlər Nazirliyinin www.mia.gov.az ünvanlı Veb saytında yerləşdirilmişdir.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012) 590-93-51; (012)-590-97-42; (012) 590-92-37; (012) 590-92-21; (012) 590-93-64; (012) 590-95-23.**

### DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜZRƏ MÜSABİQƏNİN TEST İMTAHANININ PROQRAMI

Daxili işlər orqanlarının orta rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə müsabiqənin test imtahanları mərhələsində namizədlər məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən sualları cavablandırmaqla yanaşı, aşağıdakı qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə mükəmməl hazırlıq nümayiş etdirməlidirlər:

**Qanunvericilik aktları və nəzəri bilik sahələri:**

- Azərbaycan Respublikasının Konstitusiyası
- Dövlət və hüquq nəzəriyyəsi
- Cinayət hüququ
- Cinayət prosesi
- İnzibati hüquq
- Kriminalogiyanın əsasları
- BMT-nin «İnsan hüquqları haqqında» Ümumi Bəyannaməsi
- «Polis haqqında» Azərbaycan Respublikasının Qanunu
- «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu

### DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜÇÜN MİNİMAL FİZİKİ HAZIRLIQ NORMATİVLƏRİ

"Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə müvafiq olaraq, daxili işlər orqanlarında xidmətə qəbul olunan şəxslərin fiziki hazırlıq səviyyəsi müəyyən edilmiş aşağıdakı tapşırıqlar və normativlər əsasında yoxlanılır:

**Qaçış:** 100 (yüz) metrə – 15 saniyə, 1000 (min) metrə – 4 dəqiqə;

**Turnikdə dartınma:**
**- çəkisi 80 kiloqramadək -** 10 dəfə;
**- çəkisi 80 kiloqramdan yuxarı -** 6 dəfə;

**Qollar üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi -** 20 dəfə;

**Arxası üstə uzanmış halda gövdənin döşəmədən qaldırılıb-endirilməsi -** 20 dəfə.

# Qardaşa həsr edilən QƏLƏBƏ



Bugünlərdə Litvanın Kaunas şəhərində “Kyokushin Karate” üzrə Avropa Kuboku uğrunda turnir keçirilib. Turnirdə beynəlxalq yarışların qalibi və iştirakçısı **Səbail RPİ PPXB-nin polis nəfəri, polis sıravisi Solmaz Zeynallı** 60 kiloqram çəki dərəcəsində Polşa və Litva idmançılarına asanlıqla qalib gəlib.

Finala gedən yolda həmkarımız isveçrəli idmançı ilə qarşılaşıb. Uduzacağını təxmin edən rəqibin Solmazın boğaz nahiyəsinə dirsəyi ilə qadağan olunmuş zərbə endirməsi hakimlərin diqqətindən yayınmayıb və o, turnirdən diskvalifikasiya olunub.

Əsas döyüşünə hazırlaşsa da hakimlərin qərarı ilə aldığı zərbəyə görə finala buraxılmayan idmançımız gümüş medalın sahibi olub.

Qeyd edək ki, S.Zeynallı bu qələbəsini Vətən müharibəsinin şəhidi, “İgidliyə görə”, “Vətən uğrunda” və “Füzulinin işğaldan azad olunmasına görə” medalları ilə təltif edilmiş qardaşı Tural Zeynalova həsr edib.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Onlar yenə QALİBDİR




Dekabrın 10-dan 12-dək Ukraynanın Kiyev şəhərində keçirilən “WAKO Wizard Open 21” beynəlxalq turnirində ölkəmiz DİN-in İdman Cəmiyyətinin gənclər və yeniyetmələrin baş məşqçisi, Baş Mühafizə İdarəsinin əməkdaşı, polis baş serjantı Hikmət Hacıyevin rəhbərliyi altında 10 idmançı ilə təmsil olunub.

DİN-in İdman Cəmiyyətinin yetirmələri Vətənə 6 qızıl, 2 gümüş, 2 bürünc medalla dönüblər.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# DÜNYA İKİNCİSİ OLDU

**Dekabrın 8-dən 12-dək Antalya şəhərində (Unifight) Universal döyüş idman növü üzrə dünya çempionatı keçirilib.**



Həmin yarışda beynəlxalq turnirlərin mükafatçısı, Avropa çempionu, **Sabunçu RPİ PPXB-nin polis baş serjantı Orxan Şükürov** da iştirak edib.

Belə ki, 85 kiloqram çəki dərəcəsində ilk rəqibi - İran idmançısına qalib gəldikdən sonra püşkatma nəticəsində həmkarımızın rəqibləri Qazaxıstan və Özbəkistan idmançıları olub. Onlar da idmançımız qarşısında tab gətirə bilməyiblər.

Final döyüşündə O.Şükürov ukraynalıya bir xalla məğlub olaraq yarışın gümüş mükafatçısı olub.

Qeyd edək ki, həmin yarışda Azərbaycan yığma komandası 32 nəfərlik heyətlə ölkəmizi təmsil edib.

*V.Ruslan*

## Dekabr ayının 8-dən 14-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 254 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 75 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 430 o cümlədən borclu şəxs qismində axtarışda olan 342 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 8 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 9 nəfər ölmüş, 5 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 100 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10020
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.